WWW.MKS.AZ saytının

**"Öyrətmək savab, öyrənmək qazanc" kitabxanası**

seriyasından

# PEŞƏKAR MÜHASİB SERTİFİKATI (II MƏRHƏLƏ)

*Test və Tapşırıqlar Toplusu*

**BAKI- 2023**

Bakı şəhəri, Fətəlixan Xoyski 111a, mən. 23
**Telefonlar:** 564-86-85, 050-368-12-72
**web:** www.mks.az
**email:** office@mks.az



**Müəllif Anar Bayramov** 21 avqust 1980-ci ildə anadan olub. Bakıda yerləşən 1 saylı Fizika-riyaziyyat və informatika təmayüllü orta məktəbi müvəffəqiyyətlə bitirib. 1996-2002-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu və audit' fakültəsində bakalavr və magistr təhsili alıb. Hərbi xidmətdən sonra bir müddət özəl müəssisələrdə və QHT sektorunda mühasib, maliyyə direktoru vəzifələrində çalışıb. Hazırda 10 ildən artıq çalışdığı, vaxtilə filialın mühasibi, baş ofisdə mühasib, baş mühasib, əməliyyat bölməsinin müdiri vəzifələrini tutduğu təşkilatda baş daxili auditor kimi əmək fəaliyyətini davam etdirir.

İndiyədək mühasibatlıq, vergi işi və insan resursları mövzularında nəşr edilən bir neçə kitabın müəllifi və redaktoru olub.

**Redaktor:** Qalib Toğrul

Peşəkar Mühasib Sertifikatı (II mərhələ)
Bakı - iyun 2023, 592 səhifə

## Ön Söz

Ölkəmizdə uçotun beynəlxalq standartlara uyğun təşkili və aparılması müasir dövrün və inteqrasiya etmiş dünya iqtisadiyyatının tələbidir. Müstəqillik əldə etdikdən sonra müvafiq dövlət qurumları tərəfindən bu istiqamətdə çox mühüm işlər həyata keçirilib, standartlar və qanunvericilik sənədləri hazırlanaraq qəbul edilib. Qeyd olunan işlərdən ən mühümü "Peşəkar mühasib" anlayışının qanunvericiliyə salınması və anlayışla bağlı konkret tələblərin formalaşdırılmasıdır.

"Mühasibat uçotu haqqında" AR Qanununa əsasən, peşəkar mühasib dedikdə, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçərək, peşəkar mühasib sertifikatını almış və peşəkar mühasib təşkilatının üzvü olan şəxs nəzərdə tutulur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 may 2019-cu il tarixli, 237 nömrəli Qərarı ilə "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları" təsdiq edilib. Həmin qaydalara əsasən, imtahandan müvəffəqiyyətlə keçmiş şəxslərə aşağıdakı sertifikatlar verilir:

- Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkar mühasib sertifikatı;
- Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkar mühasib sertifikatı;
- İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – I səviyyə peşəkar mühasib sertifikatı;
- İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – II səviyyə peşəkar mühasib sertifikatı.

Peşəkar mühasib sertifikatı üçün imtahanlar iki mərhələdən ibarət olur. İmtahanın birinci mərhələsi mühasibat uçotu, ikinci mərhələsi isə büdcə, vergi, mülki və əmək qanunvericiliyi üzrə sualları əhatə edir. İmtahanın ikinci mərhələsində 5 sayda açıq tipli test tapşırığı və 15 sayda qapalı tipli test tapşırığı vergi qanunvericiliyinə aid edilir.

Digər test tapşırıqları Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarını və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarını əhatə etdiyi halda, 15 qapalı tipli

test tapşırığı mülki qanunvericilik və 5 qapalı tipli test tapşırığı əmək qanunvericiliyi üzrə olur.

İmtahan suallarının qiymətləndirilməsinə gəlincə isə, imtahanın ikinci mərhələsi üzrə qapalı tipli test tapşırıqlarından 20-si 1 balla, 15-i 2 balla, açıq tipli test tapşırıqlarının hər biri 10 balla qiymətləndirilir. İmtahanın ikinci mərhələsindən 50 və ya daha çox bal toplamış namizədlər həmin mərhələ üzrə imtahandan müvəffəqiyyətlə keçmiş hesab edilirlər.

"MKS Academy" olaraq həmkarlamız üçün hazırladığımız yeni nəşrə – "Peşəkar Mühasib Sertifikatı. II mərhələ" kitabına 700 vergi, 200 mülki və 300 əmək qanunvericiliyi üzrə qapalı test tapşırıqları daxil edilib. 5 ədəd açıq tipli test tapşırığının hər birinə 10 balın verilməsini nəzərə alaraq, həmkarlarımız üçün fərqli yanaşma tətbiq etmişik. ƏDV, Mənfəət (gəlir) vergisi və sadələşdirilmiş vergi üzrə açıq suallarda diqqət yetirilməli vacib məqamlar geniş şəkildə izah olunub. Ümumilikdə 23 açıq tipli (ƏDV -10, mənfəət vergisi – 5, fiziki şəxslərin gəlir vergisi -5, sadələşdirilmiş vergi - 3) sual hazırlanaraq hər birinə ətraflı izahat verilib. Bundan əlavə, müvafiq vergilərin izahı zamanı 10-dən çox misaldan istifadə olunub.

"Peşəkar Mühasib Sertifikatı. II mərhələ" kitabı təkcə ikinci mərhələ imtahanlarına hazırlaşanlar üçün deyil, vergi, mülki və əmək qanunvericiliyinin tətbiqi sahəsində praktiki biliklərini təkmilləşdirmək istəyən mühasiblər üçün də faydalı vəsaitdir.

Nəşrlə bağlı dəyərli rəy, təklif və iradlarınızı səbrsizliklə gözləyirik. Bizimlə aşağıdakı vasitələrdən istifadə etməklə əlaqə yarada bilərsiniz:

(012) 564 86 85,
(050) 368 12 72,
mksacademy2022@gmail.com

**Bölmə I. Vergi Qanunvericiliyi - 700 sayda qapalı test**

I Fəsil – Ümumi müddəalar ........................................................**Səh.8**
II Fəsil Vergi ödəyicisi. Vergi agenti............................................**Səh.29**
III Fəsil – Dövlət Vergi orqanları ...............................................**Səh.34**
IV FƏSİL. Vergi nəzarəti ...........................................................**Səh.36**
V fəsil. Vergi qanunvericiliyinin pozulmasına görə
məsuliyyət.....................................................................................**Səh.49**
VI fəsil. Vergi orqanlarının qərarlarından (aktlarından)
və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən)
şikayət verilməsi ...........................................................................**Səh.73**
VII fəsil. Vergilərin ödənilməsi üzrə ümumi qaydalar .................**Səh.75**
VIII fəsil. Fiziki şəxslərin gəlir vergisi.........................................**Səh.104**
IX fəsil. Hüquqi şəxslərin mənfəət vergisi ..................................**Səh.118**
Fəsil X. Fiziki şəxslərin gəlir vergisinə və hüquqi şəxslərin
mənfəət vergisinə aid olan maddələr ..........................................**Səh.122**
Fəsil XI. Əlavə dəyər vergisi .......................................................**Səh.173**
Fəsil XII. Aksizlər.........................................................................**Səh.216**
XIII fəsil. Əmlak vergisi...............................................................**Səh.222**
XIV fəsil. Torpaq vergisi ..............................................................**Səh.233**
XV fəsil. Yol vergisi .....................................................................**Səh.237**
XVI fəsil. Mədən vergisi...............................................................**Səh.237**
XVII fəsil. Sadələşdirilmiş vergi ..................................................**Səh.241**
XIX fəsil. İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən
vergitutmanın xüsusiyyətləri........................................................**Səh.255**
"Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanunu ...........................**Səh.257**
I Bölmə üzrə test suallarının cavabları ........................................**Səh.262**

**Bölmə 2. 10 ballıq tapşırıqlar üzrə nəzərə alınacaq vacib məqamlar (23 sayda tapşırıq)**

1. Fiziki şəxslərin gəlir vergisi ilə bağlı
diqqət yetiriləsi məqamlar .........................................................**Səh.276**
2. Hüquqi şəxslərin mənfəət vergisində
nəzərə alınan məqamlar ............................................................**Səh.292**
3. ƏDV bölməsi üzrə nəzərə alınacaq məqamlar ..........................**Səh.317**
4. Sadələşdirilmiş vergi üzrə vacib məqamlar .............................**Səh.367**

**Bölmə 3. Mülki qanunvericilik - 200 sayda qapalı test**

1. İkinci bölmə. Şəxslər ...............................................................**Səh.378**
2. Üçüncü bölmə. Əmllak və əşya hüququ .....................................**Səh.411**

3. Dördüncü bölmə. Əqdlər ........................................................Səh.416
4. Beşinci bölmə. Müddətlər.........................................................Səh.417
5. Altıncı bölmə. Öhdəlik hüququnun ümumi hissəsi....................Səh.418
6. Yeddinci bölmə. Müqavilələrdən əmələ gələn öhdəliklər..........Səh.428
7. Səkkinci bölmə. Qanundan əmələ gələn öhdəliklər ..................Səh.450
8. Doqquncu bölmə. Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər ..............................................................Səh.450
9. Fərdi sahibkar. Sahibkarlıq fəaliyyəti haqqinda Azərbaycan Respublikası Qanunu ...............................................................Səh.452
III Bölmə üzrə test suallarının cavabları......................................Səh.453
**Bölmə 4. Əmək qanunvericiliyi (300 sayda qapalı test)**
1. I Bölmə - Ümumi normalar ....................................................Səh.458
2. III Bölmə - Əmək müqaviləsi ..................................................Səh.460
3. IV bölmə - iş vaxtı ..................................................................Səh.464
4. V bölmə - İstirahət vaxtı və işçilərin məzuniyyət hüququ ........Səh.470
5. VI bölmə -Əmək normaları, əməyin ödənilməsi normaları, qaydaları və təminatları ..........................................................................Səh.508
6. "Dövlət qulluğu haqqında" Qanun ..........................................Səh.533
7. "Tibbi sığorta haqqında" Qanun ..............................................Səh.534
8. Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə" ....Səh.536
9. "Ezamiyyə xərclərinin normaları haqqında" Nazilər Kabinetinin Qərarı və "İşçilərin Ezamiyyə Qaydaları" ....Səh.558
10. "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" NK Qərarı ..Səh.561
11. "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" NK Qərarı ................................................................Səh.562
III Bölmə üzrə test suallarının cavabları......................................Səh.564
**Bölmə 5. Peşəkar mühasib sertifikatının (PMS) verilməsi üçün keçirilən imtahanlar proqramları (II mərhələ - Vergi, Əmək və Mülki Qanunvericilik)** ....................................................Səh.569